# Birinci vitse-prezident Mehriban Əliyeva paraatlet Səid Nəcəfzadəni Paralimpiya çempionu olması münasibətilə təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Səid Nəcəfzadənin "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Paraatlet Səid Nəcəfzadəni "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması münasibətilə təbrik edirəm! Peşəkarlıq və qətiyyət nümayiş etdirən idmançımız Azərbaycan azarkeşlərinin ümidlərini doğrultdu! Çempionu səmimi-qəlbdən təbrik edir, ona yeni nailiyyətlər arzulayıram!"

Azərbaycan.- 2024.- 3 sentyabr, № 190.- S.1.